**Cəmilə ƏZİZOVA**
*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Ədəbiyyat və Azərbaycan dili kafedrası"nın müəllimi*

# QLOBALLAŞMA DÖVRÜNDƏ AZƏRBAYCAN ƏDƏBİYYATŞÜNASLIĞININ NƏŞR PROBLEMLƏRİ

***Açar sözlər**: informasiya əsri, kitabxana- biblioqrafiya, informasiya tələbatı.*

***Ключевые слова:** информационный век, библографическая библиотека, информационное требование.*

***Key words**: information century, bibliographic library, information requirement.*

Azərbaycanın milli müstəqilliyinin əldə olunması ilə əlaqədar həyatımızın bütün sahələrində baş verən dəyişikliklər biblioqrafiya işinə, o cümlədən bədii ədə-biyyat və ədəbiyyatşünaslıq biblioqrafiyasına da öz təsirini göstərmişdir.

Müasir dövrdə ölkəmizdə milli idealogiyanın tərənnümü xüsusi əhəmiyyət kəsb edir. Milli idealogiyaya dair mənbələr bədii ədəbiyyat və ədəbiyyatşünaslıq sahəsinə də öz təsirini göstərmişdir. Bu mənbələr xalqın mənəvi estetik sərvəti hesab edilir. Buna görə də bu mənbələrin mənimsənilməsinin təbliğinə təsir göstərən biblioqrafiyanın əməli fəaliyyət kimi müəyyən dövrlərinin araşdırılması, tarixinin öyrənilməsi və bu sahədə olan problemlərin aradan qaldırılması bir vəzifə kimi irəli sürülür.

Müasir dövr demokratik informasiyalaşmış cəmiyyət dövrüdür. Bu elə cəmiyyətdir ki, onun inkişaf səviyyəsi həlledici dərəcədə toplanmış və istifadə olunan informasiyanın şəffaflığı, onun alınması, ötürülməsi və istifadəsində cə-miyyət üzvlərinin bərabər hüquqa malik olması ilə müəyyənləşir.



Müasir cəmiyyətdə informasiya əsri kimi dəyərləndirilən XXI yüzillik elmi- texniki tərəqqinin sürətli inkişafı, sivilizasiyanın yüksəlişi, mədəniyyətlərin qovuşması ilə xarakterizə olunur. Bəşər mədəniyyətinin yeni inkişaf mərhələsinə keçməsi, informasiyalaşdırılmış cəmiyyətin yaradılmasının əsasının qoyulması məhz bu əsrin ən böyük maddi və mənəvi sərvəti hesab olunur.

Azərbaycanın dövlət müstəqilliyinin bərpası, milli dövlət quruculuğuna başlanması ilə bu proses hazırda sürətlə davam edir. 1991-ci il oktyabrın 18-də müstəqil Azərbaycan Respublikasının yaranması milli-mədəni və tarixi ənənələrə, ümumbəşəri dəyərlərə söykənən həqiqi demokratik cəmiyyət quruculuğunun başlanması ilə nəticələndi. Beləliklə Azərbaycan tarixinin yeni erası müstəqil inkişaf dövrü başlandı.

1993-cü ildə Azərbaycanın dünya şöhrətli siyasi xadimi, ümummilli liderimiz Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişindən sonra apardığı siyasət cəmiyyətdə köklü dəyişikliklər yaratdı. İctimai- siyasi stabitllik bərpa olundu. Elmin, mədəniyyətin, təhsilin inkişafı intensiv xarakter almağa başladı.

1999-cu ilin 12 martında Heydər Əliyev tərəfindən "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının qanununun tətbiq edilməsi barədə fərman imzalanmışdır. Qanunda deyilir: "Kitabxana elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi çap əsərləri və digər informasiya daşıyıcılarını toplayıb, mühafizə edən, onların sistemli ictimai istifadəsini təşkil edən, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət göstərən sosial institutdur".

Hər bir xalqın elmi, iqtisadi və mədəni inkişafının hərəkətverici mənbələrindən biri tarix boyu topladığı və mühafizə etdiyi sənədləşdirilmiş informasiya ehtiyatlarıdır. Müstəqillik dövründə ölkənin sosial-iqtisadi tərəqqisi, xalqın mədəni-mənəvi potensialı-

nın güclənməsi, milli mədəniyyətimizin hərtərəfli inkişafı üçün geniş şərait yaranmışdır.

Xalqımızın təbii, maddi və mənəvi sərvətləri sistemində 111 milyon nüs-xədən artıq ilkin və ikinci dərəcəli sənədləri əhatə edən kitabxana- biblioqrafiya ehtiyatları mühüm yer tutur. Bu sərvətlər əsrlər boyu yaranmış, nəsillərdən- nəsillərə gəlib çatmışdır. Tarixi paralellərin aparılması yolu ilə müəyyən edilmişdir ki, bu sərvətin yaranması köklü problemlə-cəmiyyətin iqtisadi, sosial, mənəvi və onların nəticəsi kimi təzahür edən informasiya tələbatının ödənilməsi zərurəti ilə bilavasitə əlaqədar olmuşdur.

Konkret tarixi-sosial şəraitdən asılı olaraq kitabxana-biblioqrafiya müəs-sisələrinin də yeni funksiyaları və ya kompleks funksiyanın yeni istiqamətləri inkişaf edir. "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda qeyd edilir: "Kitabxana fəaliyyətinin əsas istiqamətləri sənəd-informasiya fondlarının formalaşmasından, mühafizəsindən və bu materialların hüquqi və fiziki şəxslərə istifadə vasitələrindən, kitabxanalarda toplanıb saxlanılan informasiya vasitələrinin mübadiləsinə imkan verən vahid informasiya məkanının yaradılmasından ibarətdir".

Cəmiyyətdə biblioqrafik fəaliyyətin son məqsədi insanın informasiya tələbatının ödənilməsinə təsir göstərmək olduğundan, onun son nəticəsi həmin tələbatların ödənilməsinin reallaşmasıdır. Biblioqrafiyalaşdırma prosesinin bilava sitə ümumi nəticəsi olan biblioqrafik vəsaitlər müxtəlif əlamətlərə görə fərqlən dirilə bilərlər. Vəsaitin hər bir növü dəqiq və dürüst əlamət əsasında fərqləndirilir. Biblioqrafik vəsaitin hər bir əlamətə görə növlərə bölünməsi mütənasib olmalı və biri digərini əvəz etməlidir.

Bu, eyni zamanda sənəd kommunikasiyaları sistemində mühüm vasitəçilərdən olan biblioqrafiyanın, o cümlədən biblioqrafik fəaliyyətin düzgün təşkili istiqamətini də müəyyənləşdirir. Hal-hazırda informasiya tələbatçılarının biblioqrafik informasiya təminatının səmərəli və operativ təmini qarşıda duran mühüm vəzifələrdəndir.



Bədii ədəbiyyat və ədəbiyyatşünaslıq üzrə informasiya resursları əməli biblioqrafik fəaliyyətin nəticəsidir və əsas məqsəd istifadəçilərə bədii ədəbiyyat və ədəbiyyatşünaslığın öyrənilməsində, tədqiq edilməsində yardım etməkdən ibarətdir.

Azərbaycanda biblioqrafik fəaliyyətin inkişafından danışarkən bədii ədəbiyyat və ədəbiyyatşünaslıq biblioqrafiyasını xüsusi qeyd etmək lazımdır. Çünki bu sahə Azərbaycan biblioqrafiyasının ən çox inkişaf etmiş və informasiya tələbatçıları arasında daha çox istifadə edilən sahələrindən biridir. Azərbaycan milli ədəbiyyatı xalqımızın zəngin və misilsiz söz inciləri xəzinəsidir. Onun hər bir növü və janrı indiyə qədər öyrənilib tədqiq olunsa da, hələ tədqiq edilməli sahələri və problemləri çoxdur. Azərbaycan ədəbiyyatının müxtəlif problemlərinin tədqiqi ilə ədəbiyyatşünaslıq elmi məşğul olur. Ədəbiyyatşünaslığın biblioqrafiyası isə ədəbiyyatşünaslıq, ədəbi-tənqid, folklor və başqa sahələr üzrə sənədləri qruplaşdıran, sistemləşdirən, onun biblioqrafik informasiyasını hazırlayan və tələbatşılara çatdıran sahəvi biblioqrafiya növüdür. İlk rüşeymləri orta əsrlərə gedib çatan ədəbiyyatşünaslıq biblioqrafiyasının inkişafı XX əsrin II yarısında mümkün olmuşdur.

Bədii ədəbiyyat və ədəbiyyatşünaslıq sahəsini operativ informasiya ilə təmin etmək üçün informasiya istifadəçilərini dərindən öyrənmək lazımdır. Çünki onları dərin¬dən öyrənmədən, tanımadan, tələbatlarını bilmədən səmərəli biblioqrafik xidməti təşkil etmək mümkün deyil. Bu baxımdan sahənin informasiya istifadəçilərini biblioqrafik informasiyanın obyekti kimi xarakterizə etmək lazımdır.

Son illər bədii ədəbiyyat və ədəbiyyatşünaslıq sahəsi izrə informasiya tələbatının fərdi şəkildə formalaşmasına təsir edən psixoloji amillərin öyrənilməsinə də diqqət artmışdır. Bu amillər

aşağıdakılardır: aktivlik və passivlik, səbəb və məqsədlər, xarakterik xüsusiyyətlər (əsəbilik, hövsələsizlik, utancaqlıq, biblioqrafla informasiya istifadəçi arasında psixoloji uyğunlaşma) və s. Bütün bunlar sahə mütəxəsislərinə biblioqrafik xidmət zamanı mütləq nəzərə alınır.

Lakin biblioqrafik nöqteyi-nəzərdən istifadəçinin peşə fəaliyyəti dairəsi və vəzifə statusuna əsasən differensasiyası daha böyük maraq doğurur.

Bədii ədəbiyyat və ədəbiyyatşünaslıq məzmunlu sənəd informasiya tələbatının yaradılmasına səbəb, bu sahə üzrə informasiyaya ehtiyacı olan tələbatçılardır. Nəzərə almaq lazımdır ki, kəmiyyət əlamətinə görə informasiya tələbatçıları həm fərdi, həm də qrup (kollektiv) və nəhayət, ictimai ola bilər. Fərdi tələbatçıların informasiya tələbatları xeyli mürəkkəbdir və çoxsahəlidir. Buraya bədii ədəbiyyat və ədəbiyytşünaslığın müxtəlif problemləri və sahələri ilə məşğul olan tək-tək tələbatçıları aid etmək olar. Hər bir kəsin məzmun və sahəvi istiqamətə görə müxtəlif tələbatları ola bilər.

İctimai informasiya tələbatı deyərkən bütün cəmiyyətə xas olan informasiya tələbatı nəzərdə tutulur. Bədii ədəbiyyat və ədəbiyyatşünaslıq üzrə informasiya tələbatının mürəkkəb struktura malik olmasının əsas səbəbi həmin tələbatı formalaşdıran kontingentin özünün də mürəkkəb tərkibə və həmin sahənin özünün mürəkkəb quruluşa malik olmasından irəli gəlir. Bu onunla əlaqədardır ki, bu gun hər bir insan təkcə peşə fəaliyətilə deyil, digər fəaliyyət növlərilə də məşğul olur. Bunlara tədris, təhsil, idman, elmi fəaliyyətlər aid edilə bilər. Hər bir peşə fəaliyyəti informasiya tələbatı doğurur.

Əhatə dairəsinə görə kollektiv informasiya tələbatı bədii ədəbiyyat və ədəbiyyatşünaslıq sahəsində fəaliyyət göstərən ayrı-ayrı peşə, tədris və s. maraqlar üzrə birləşən kollektivləri əhatə



edir. Əgər bədii ədəbiyyat və ədəbiyyatşünaslıq sahəsində ictimai informasiya tələbatı bütünlukdə respublikanı əhatə edirsə, kollektiv tələbat bədii ədəbiyyat və ədəbiyyatşünaslıq sahəsində çalışan tədris və elmi-tədqiqat işçilərini, ayrı-ayrı ictimai və peşə təşkilatlarının üzvlərini əhatə edir. Məsələn, AMEA Nizami adına Ədəbiyyat institutunda çalışan 167 nəfər elmi işçi kollektiv tələbatçılara aid ola bilər. Eyni zamanda AMEA-nın bütün institut və təşkilatlarının, bölmələrinin əməkdaşları kollektiv tələbatçılara aid ola bilər. Kollektiv informasiya tələbatı ayrı-ayrı fərdlərin informasiya tələbatlarının sadəcə məcmusindən ibarətdir.

Konkret insanda ona hansı informasiyanın lazım olması barəsində təsəvvürlər ondan bu an mövcud olan informasiya əsasında əldə etmək fəaliyyəti şəxsiyyətin fəallığının aparıcı göstəricillərindən biridir. Hər hansı bir şəxsin bədii ədəbiyyat və ədəbiyyatşünaslıq sahəsinin müxtəlif istiqamətləri üzrə informasiya əldə etmək sahəsindəki fəaliyyətini sahə üzrə informasiya tələbatı fəaliyyəti adlandırmaq olar. Tədqiqatlar göstərir ki, insanın peşə fəaliyyəti nə qədər inkişaf edər və mürəkkəbləşərsə, onun informasiya tələbatı da bundan asılı olaraq formalaşar və mürəkkəbləşər. Eyni zamanda bədii ədəbiyyat və ədəbiyyatşünaslıq üzrə biblioqrafik informasiya tələbatı ilk növbədə ilkin sənəd tələbatının təsiri ilə meydana gəlir.

Bədii ədəbiyyat və ədəbiyyatşünaslıq üzrə informasiya təminatı bir sıra sahəvi fərqlərə malikdir. Həmin fərqlər bu sahənin özünün fərqli xususiyyətlərindən və bu sahədə olan informasiyaya ictimai tələbatdakı fərqlərdən irəli gəlir. Məsələn, bədii ədəbiyyat və ədəbiyyatşünaslıq üzrə sənəd informasiya tələbatları bu sahə üzrə geniş informasiya tələbatçılarının marağı əsasında, onların həmin sahə üzrə ən yeni nəaliyyətləri öyrənmək tələbatından, bu sahədə baş verən hadisələri dərk etməyə ehtiyacdan yaranır. Bədii ədəbiyyat və ədəbiyyatşünaslığın tarixənə dair sorğuların daha

yüksək aktuallıq kəsb etməsi bəhs edilən tələbatın da intensivləşməsinə səbəb olur. Bədii ədəbiyyat və ədəbiyyatşünaslıq üzrə tələbatın özü də mürəkkəb daxili struktura malikdir.

Müstəqillik dövründə Nizami adına Ədəbiyyat İnstitutunun fəaliyyətinin yeni mərhələsi başlanmışdır. Azərbaycançılıq ideyasının, milli maraqların ön mövqeyə çəkilməsi, dünyanın əsas elmi mərkəzləri ilə əlaqələrin genişləndirilməsi, açılmamış səhifələrin tədqiqata cəlb olunması Ədəbiyyat İnstitutunun müasir mərhələsinin əsas istiqamətlərini müəyyən edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 12 yanvar 2004-cü il tarixli "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Sərəncamının həyata keçirilməsində institut əməkdaşlarının özünəməxsus xidmətləri vardır. Ölkəmizdə klassik və müasir ədəbiyyatın bir çox dəyərli nümunələri institut əməkdaşlarının tərtibçiliyi və müqəddiməsi əsasında latın qrafikası ilə çap edilmişdir. Hazırda Ədəbiyyat İnstitutunda yeddicildlik Azərbaycan ədəbiyyatı tarixinin dörd cildinin nəşri başa çatdırılmışdır. Beşinci, altıncı və yeddinci cildlər üzərində isə ciddi elmi-tədqiqat işləri aparılmaqda davam edir. Ədəbiyyat İnstitutunun çap etdirdiyi böyük demokrat yazıçı Cəlil Məmmədquluzadənin redaktorluğu ilə çıxmış "Molla Nəsrəddin" jurnalının səkkiz cilddə və Əli bəy Hüseynzadənin "Füyuzat" jurnalının bir cilddə transliterasiya nəşri ölkə miqyasında elmi-ədəbi hadisə sayılmağa layiqdir. Moskvada "Художественная литетература" nəşriyyatında "Azərbaycan folkloru və ədəbi abidələri" antologiyasının 4 cildinin kitab halında nəşr edilməsi də mühüm əhəmiyyətə malikdir

Beləliklə, sahə üzrə nformasiya tələbatının formalaşmasında həm də insanların peşəsi, təhsili, maraq dairəsi çox mühüm əhəmiyyət kəsb edir. Buna görə də informasiya tələbatından bəhs



edərkən həmin əlamətlər nəzərə alınmaqla müxtəlf təsnifat qrupları formalaşdirmaq mümkündür.

## *ƏDƏBİYYAT SİYAHISI:*

1. Axundov. A. Elm, mədəniyyət, maarif problemləri dövlət başçısının diqqətində// Xalq qəzeti. – 2004 – 2 noyabr
2. Budaqov. B. Elmin inkişafına dövlət qaygısı // H.Əliyev fenomeni. – Bakı: NPM, 2002. –s.26-30.
3. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan Respublikasında "Kitabxana- informasiya sahəsinin 2008- 2013 cü illərdə inkişafı üzrə Dövlət Proqramı" nın təsdiq edilməsi barədə sərəncamı //Respublika. – 2008 – 7 oktyabr.
4. Əliyeva –Kəngərli.A. Müasir Azərbaycanda elmin informasiya təminatı və kitabxanalar. / A.Əliyeva – Kəngərli; Bakı:Elm, 2007. -394s.
5. Əliyev . Z. Ümumi biblioqrafiya. S.30.

**Дж. Азизова**

## ПУБЛИКАЦИОННЫЕ ПРОБЛЕМЫ ЛИТЕРАТУРАВЕДЕНИЕ АЗЕРБАЙДЖАНА В ПЕРИОД ГЛОБАЛИЗАЦИИ

### РЕЗЮМЕ

В связи с преобретением нацианальной независимости Азербайджана, произошедщие изменения во всех сферах повлияли на художественную литературу и библиографию. Эта сфера Азербайджанской библиографии одна из наиболее развитых и часто исползуемых. В обшестве цель библиографической дейателности заключается в удовлетворении информационных потребностей у людей.

**J.Azizova**

## PUBLICATION PROBLEMS LITERATURE SCIENCE AZERBAIJAN DISGUISED GLOBALIZATION

### SUMMARY

The gaining of Azerbaijan national inderpendency effected the changes of our life in all parts and in its literary art and literatiry bibliography.

This literary brunch is the most usefull and developt part of Azerbaijan bibliography. The final purpose of joined societies activity continious to effect the povission of an information needs of people.